məyə
geniş-
na-

**Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsinin "Qarabağ xalçaçılıq məktəbi - Şuşa" bölməsi üzrə növbəti təqdimat Şuşa qrupuna aid "Bulud" xalçasına həsr olunub. Bu barədə nazirliyin mətbuat xidmətinin verdiyi məlumatda bildirilir.**

Qarabağ tipinə aid "Bulud" adı ilə məşhur olan xalçalar Şuşada XIX əsrin II yarısından etibarən Avropa və Rusiya incəsənətinin təsiri ilə meydana çıxıb. Bu dövrdə Azərbaycanın Ümumrusiya əmtəə tədavülünə qoşulması ilə əlaqədar Rusiyadan Azərbaycana müxtəlif çeşidli mallar gətirilirdi. Sənətkarlar

# "Bulud" xalçası

həmin məmulatların üzərindəki naxış və rəsmlərdən ilham alaraq onları xalça üzərinə keçirirdilər. "Saxsıda güllər", "Bulud" xalçaları da bu qəbildən olaraq rus dekorativ sənətinin təsiri ilə yaranan xalça çeşniləridir.

Qeyd edək ki, xalçanın "Bulud" adlanması isə üzərində yerləşdirilən naxış elementlərinin pərakəndəliyinin səmada bulud təəssüratı yaratması ilə əlaqədardır.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Respublika.- 2022.- 5 may.- S.13.